Maliyyə Monitorinqi Xidməti

Azərbaycan Respublikasının
Maliyyə Monitorinqi Xidmətinin
2022-ci il üzrə

# İLLİK HESABATI



2022



# Mündəricat


Akronimlər 4

Ön söz 6

Qanunvericiliyin təkmilləşdirilməsi 7

ƏL/TMM üzrə siyasət quruculuğu və MONEYVAL-ın 5-ci raund qiymətləndirməsinə hazırlıq 9

Məlumatların emalı 12

Analitik fəaliyyət 13

Ölkədaxili əməkdaşlıq 16

Beynəlxalq əməkdaşlıq 18

İnstitusional quruculuq və təşkilati məsələlər 21

İnformasiya texnologiyaları 22





# Akronimlər

| | |
|---|---|
| EQMONT | Maliyyə monitorinqi orqanlarının (MMO) ixtisaslaşmış beynəlxalq təşkilatı |
| ƏL | Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması |
| ƏL/TMM | Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi |
| FATF | İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Maliyyə Tədbirləri üzrə İşçi Qrupu |
| GoAML | Xüsusi analitik modul sistemi |
| HMO | Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti Hüquq mühafizə orqanları |
| İT | İnformasiya texnologiyaları |
| MMX | Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti |
| MMO | Maliyyə monitorinqi orqanları |
| MONEYVAL | Avropa Şurasının Pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı tədbirlərin qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi |
| MRQ | Milli risk qiymətləndirilməsi |
| TM | Terrorçuluğun maliyyələşdirilməsi |





# Ön söz

Günümüzdə maliyyə cinayətlərindən təsirlənməyən az adam tapılar. Bəzimizə belə cinayət hadisələri çox uzaqda görünə bilər, lakin bu onların yoxluğu anlamına gəlmir. Bizdən uzaqdadırsa, ehtimal ki, başqa cəmiyyətdə çiçəklənməkdədir. Haradasa bir oğru kiminsə plastik kartını və ya şəxsiyyət vəsiqəsi məlumatlarını oğurlayır, qaçaqmalçılar ölkəyə qanunsuz silah gətirir, küçələrdə narkotik ticarəti aparılır və s. Belə cinayətlərdən gələn pul axının izlənməsi törədilmiş cinayətlərin və ya baş verəcək terror aktlarının üzə çıxarılmasında olduqca vacibdir.
Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti ölkəmizdə və xaricdə belə cinayətlərin qarşısının alınması üçün 2022-ci ildə də fəaliyyətini davam etdirib genişləndirmişdir.

MMX ölkəmizin iqtisadiyyat sahəsində cinayətkarlığa qarşı uğurla mübarizə aparmaq məqsədilə 2022-ci ildə ƏL/TMM üzrə MRQ layihəsini uğurla tamamlamış, müvafiq sahə üzrə siyasətin və qanunvericiliyin təkmilləşdirilməsi, müəyyən edilmiş tələblərə uyğun olaraq məlumatların emalı, təhlili və ötürülməsi, institusional quruculuq, informasiya texnologiyalarının təkmilləşdirilməsi, habelə ölkədaxili və beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirmişdir. Cari fəaliyyətlərə əlavə olaraq, hesabat ili ərzində strateji prioritet təşkil edən istiqamət- MONEYVAL-ın 5-ci raund qiymətləndirməsinə hazırlıq üzrə sistemli və kompleks tədbirlər görülmüşdür.




## Qanunvericiliyin təkmilləşdirilməsi

2022-ci ildə Azərbaycan Respublikasında ƏL/TMM sahəsində həyata keçirilən islahatların strateji xəttini Avropa Şurasının MONEYVAL 5-ci raund qiymətləndirməsinə hazırlıq çərçivəsində milli qanunvericiliyin beynəlxalq standartların tələblərinə uyğunlaşdırılması prosesinin tamamlanması təşkil etmişdir.

Qanunvericiliyin təkmilləşdirilməsi və siyasət quruculuğu üzrə tədbirlər əsas etibarilə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 1859 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı” (bundan sonra – Milli Fəaliyyət Planı) və Nazirlər Kabinetinin “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sisteminin risk qiymətləndirilməsinin dövri qaydada keçirilməsinin təmin edilməsinə, müvafiq sahədə həyata keçiriləcək qiymətləndirilməyə hazırlığın təşkil olunmasına və bu məqsədlərlə koordinasiya mexanizminin yaradılmasına dair bəzi tədbirlər haqqında” 2020-ci il 21 oktyabr tarixli 404 nömrəli Qərarı (bundan sonra – 404 nömrəli Qərar) ilə müəyyən edilmiş öhdəliklərin icrasını əhatə etmişdir.

Bu çərçivədə MMX tərəfindən hazırlanmış və 404 nömrəli Qərar əsasında yaradılan Koordinasiya Şurasında yer alan qurumlarla razılaşdırılmış “Cinayət yolu ilə əldə edilmiş əmlakın



leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikası qanunları 2022-ci il 30 dekabr tarixində qəbul edilmişdir. Milli qanunvericiliyin ƏL/TMM üzrə beynəlxalq standartlar olan FATF-ın tələblərinə uyğunlaşdırılması istiqamətində atılan məqsədyönlü və ardıcıl tədbirlərin nəticəsi olaraq bu qanunların qəbul edilməsi ƏL/TMM üzrə preventiv sistemin gücləndirilməsi, aidiyyəti qurumların, xüsusilə maliyyə monitorinqi orqanının, nəzarət və hüquq mühafizə orqanlarının funksionallığının genişləndirilməsi, ölkədaxili və beynəlxalq əməkdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi, habelə BMT-nin Təhlükəsizlik Şurasının terrorçuluğa, terrorçuluğun maliyyələşdirilməsinə və kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində hədəfli maliyyə sanksiyalarının effektiv tətbiqi üçün hüquqi əsaslar formalaşdırmışdır.

Hesabat dövründə MMX-də idarəetmənin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 215 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi”ndə dəyişiklik layihəsi hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 dekabr tarixli 1910 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.



## ƏL/TMM üzrə siyasət quruculuğu və MONEYVAL-ın 5-ci raund qiymətləndirməsinə hazırlıq

2022-ci il ərzində ƏL/TMM üzrə siyasət quruculuğu sahəsində 404 nömrəli Qərardan irəli gələn tədbirlərin ardıcıllığının təmin edilməsi, habelə 2022-ci ilin aprel ayından başlayan 5-ci raund qiymətləndirmə çərçivəsində ölkə səviyyəsində qurumlararası zəruri əməkdaşlığın təşkili istiqamətində ardıcıl fəaliyyətlər davam etdirilmişdir.

Belə ki, ƏL/TMM sahəsində MRQ üzrə geniş miqyaslı təhlil işləri hesabat ilində yekunlaşdırılmış və hazırlanmış hesabat aidiyyəti dövlət qurumlarına təqdim edilmişdir. MRQ hesabatının əsas nəticələrinin monitorinq subyektləri və geniş ictimaiyyət ilə kommunikasiyası məqsədilə 2022-ci ilin 23 avqust tarixində MMX-nin “Youtube” səhifəsində məlumatlandırma sessiyası baş tutmuşdur.

MRQ çərçivəsində ölkənin ƏL/TMM sistemi üzrə xarici və daxili təhdid mənbələri müəyyən edilmiş, qanunvericilik və institusional xarakterli bir sıra məsələlər üzrə təkmilləşdirmələrin aparılması zərurəti aşkarlanmışdır. Bu xüsusda, mövcud ölkədaxili, regional və qlobal risklər nəzərə alınmaqla milli ƏL/TMM sisteminin effektivliyinin artırılması və bu sahədə ölkədaxili və beynəlxalq əməkdaşlığın gücləndirilməsi məqsədilə hazırlanmış “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı” (Milli Fəaliyyət Planı) layihəsi Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli 3770 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.

Bundan başqa, MMX tərəfindən ölkənin ƏL/TMM sistemi üzrə müxtəlif istiqamətlərdə risklərin qiymətləndirilməsi ilə bağlı 2022-ci il ərzində ardıcıl fəaliyyətlər həyata keçirilmişdir. Belə ki, qeyri-kommersiya təşkilatları üzrə terrorçuluğun maliyyələşdirilməsi risklərinin qiymətləndirilməsi üçün ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin “Şəffaflıq üçün vətəndaş cəmiyyəti institutlarının gücləndirilməsi” layihəsi çərçivəsində işlər görülmüş və müvafiq hesabat hazırlanaraq aidiyyəti dövlət qurumlarına təqdim edilmişdir.

Hesabat ilində həmçinin 404 nömrəli Qərarın 16.2-ci bəndinə uyğun olaraq 5-ci raund qiymətləndirməyə hazırlıq çərçivəsində milli ƏL/TMM sistemi üzrə aşkarlanan çatışmazlıq və zəifliklərin aradan qaldırılması üçün hazırlanmış Tədbirlər Planı Koordinasiya Şurasının 2022-ci ilin 23 iyun tarixli iclasında qəbul edilərək icraya yönəldilmişdir.









## Məlumatların emalı

2022-ci ildə MMX tərəfindən 29 monitorinq subyekti və 44 yeni məsul şəxs GoAML məlumat bazasında qeydiyyatdan keçirilmişdir ki, bununla da ümumi qeydiyyatdan keçmiş şəxslərin sayı 326-ya yüksəlmişdir. Bundan əlavə, MMX-ya monitorinq subyektləri tərəfindən göndərilən hesabatların keyfiyyətinin artırılması məqsədilə məlumat bazasında optimallaşdırma işləri həyata keçirilmiş, səhv göndərilən məlumatlar üzrə 150-yə yaxın geri qaytarılma alqoritmləri qurulmuşdur.

MMX-nin qanunla müəyyən edilmiş funksiyalarının effektiv icrası çərçivəsində olduqca vacib olan məsələlərdən biri müxtəlif məlumat bazalarından istifadə imkanlarının genişləndirilməsidir. Bu məqsədlə, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 214 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə qəbul edilən Nazirlər Kabinetinin 2018-ci il 26 iyul tarixli 558s nömrəli Sərəncamının 2-ci hissəsinin icrası ilə əlaqədar MMX tərəfindən hazırlanmış "Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin nəzarət orqanlarının və müəyyən edilmiş digər orqanların (qurumların) informasiya resurslarından istifadəyə buraxılış dərəcəsinin (alınan məlumatların dairəsinin) müəyyən edilməsi barədə" Qərar layihəsi Nazirlər Kabinetinin 2022-ci il 19 sentyabr tarixli 359 nömrəli Qərarı ilə qəbul edilmişdir. Qərarın qəbul edilməsi ƏL/TMM sahəsində beynəlxalq standartların tələblərinə uyğun olaraq, MMX-nin 12 dövlət qurumunun məlumat bazasına çıxışın təmin edilməsinə, bununla da onun analitik potensialının gücləndirilməsinə imkan verir.

# Analitik fəaliyyət

2022-ci ildə monitorinq subyektləri tərəfindən MMX-yə ümumilikdə 56 297 hesabat təqdim olunmuşdur. MMX-nin elektron informasiya bazasına daxil olmuş müvafiq məlumatlardan 29 493-nü (52%) cari əməliyyatlar, 24 472-ni (44%) yüksək riskli əməliyyatlar, 1 078-ni (2%) şübhəli əməliyyatlar barədə və 1 254-nü (2%) isə digər növ hesabatlar təşkil etmişdir.

2021-ci illə müqayisədə 2022-ci ildə limit əsaslı əməliyyatlar üzrə hesabatların sayında 6%, yüksək riskli əməliyyatlar üzrə hesabatların sayında 5% və şübhəli əməliyyatlar üzrə hesabatların sayında 2 dəfədən çox artım müşahidə edilmişdir (Diaqram 1).




*Diaqram 1. 2020-2022-ci ildə MMX-yə hesabatların bölgüsü*

Həmçinin 2022-ci il ərzində MMX tərəfindən şübhəli əməliyyatların təhlili ilə əlaqədar 5516 daxili və 25 xarici sorğu verilmişdir. Bu dövr ərzində monitorinq subyektlərinə 5490, hüquq mühafizə orqanlarına 21, ölkədaxili digər qurumlara 5 sorğu göndərilmişdir. Xarici MMO-lara verilmiş sorğuların 95%-i cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, 5%-i isə terrorçuluğun maliyyələşdirilməsi şübhəsi ilə əlaqəli olmuşdur.



Hesabat ilində əvvəlki illə müqayisədə MMX tərəfindən hüquq mühafizə orqanlarına təqdim olunan işlərin sayında, həmçinin maliyyə araşdırması məlumatlarından istifadə edilən cinayət işlərinin sayında əhəmiyyətli artım olmuşdur. Belə ki, 2022-ci il ərzində MMX tərəfindən monitorinq subyektlərindən, hüquq mühafizə və xarici MMO-lardan daxil olmuş məlumatların araşdırılması, habelə açıq mənbələr üzrə təhlillərin nəticəsində şübhəli hallara dair Azərbaycan Respublikasının Baş Prokurorluğuna 46, Dövlət Təhlükəsizliyi Xidmətinə 16, Daxili İşlər Nazirliyinə 2, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə 5 və Dövlət Gömrük Komitəsinə 1 məlumat olmaqla, ümumilikdə hüquq mühafizə orqanlarına 70 iş barədə məlumat təqdim edilmişdir (Diaqram 2). Bunlardan 20 iş monitorinq subyektlərindən, 47 iş hüquq mühafizə orqanlarından, 2 iş xarici maliyyə monitorinqi orqanından daxil olmuş məlumatların MMX tərəfindən araşdırılması, 1 iş isə MMX-nin strateji araşdırması əsasında təqdim edilmişdir. Həmçinin vergidən yayınma cinayəti şübhəsi üzrə Dövlət Vergi Xidmətinə 124 fiziki şəxs barəsində spontan qaydada məlumat təqdim edilmişdir.

Bundan başqa, 2022-ci il ərzində hüquq mühafizə orqanlarından cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması ilə bağlı daxil olmuş 43 sorğu və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı daxil olmuş 7 sorğu aidiyyəti üzrə araşdırılaraq müvafiq qaydada qarşı tərəfə təqdim olunmuşdur. 2022-ci ildə MMX tərəfindən təqdim edilən məlumatlar əsasında hüquq mühafizə orqanları tərəfindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması faktı üzrə 8 cinayət işi başlanmışdır. Həmçinin, MMX-nin təqdim etdiyi məlumatlar digər predikativ cinayətlərlə bağlı başlanmış 21 cinayət işində (bu da əvvəlki ilə nisbətən 2.1 dəfə çoxdur) maliyyə təhlili məlumatları qismində istifadə edilmişdir. Hesabat ili ərzində, həmçinin, xarici MMO-lardan daxil olmuş 32 sorğu MMX tərəfindən araşdırılmış və cavablandırılmışdır.




| | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| Baş Prokurorluq | 21 | 15 | 46 |
| Daxili İşlər Nazirliyi | 2 | 4 | 2 |
| Dövlət Təhlükəsizliyi Xidməti | 17 | 18 | 16 |
| Dövlət Vergi Xidməti | 0 | 0 | 5 |
| Dövlət Gömrük Komitəsi | 0 | 0 | 1 |
| Cəmi | 40 | 37 | 70 |

*Diaqram 2. MMX tərəfindən hüquq mühafizə orqanlarına ötürülən işlərin dinamikası*

Bundan başqa, MMX-də aparılmış təhlil nəticəsində yeni tipologiya hazırlanaraq hüquq mühafizə orqanlarına təqdim edilmişdir. Müvafiq strateji təhlil saxta virtual valyuta ticarətinin təşkili ilə vətəndaşların etibarından sui-istifadə edərək onlara məxsus pul vəsaitlərinin bir qrup şəxs tərəfindən ələ keçirilərək mənimsənilməsi əməlini əhatə etmişdir. Bundan əlavə, hesabat dövründə MMX-nin məlumat bazasına daxil olmuş məlumatların rüblük tendensiyalarını özündə əks etdirən və daxili istifadə üçün nəzərdə tutulan statistik bülletenlər hazırlanmışdır.

2022-ci il ərzində monitorinq subyektləri tərəfindən MMX-yə göndərilən şübhəli əməliyyatlara dair məlumatların keyfiyyətinin yüksəldilməsi və geriyə məlumatlandırma mexanizminin qurulması məqsədilə də işlər davam etdirilmişdir. Bu çərçivədə monitorinq subyektlərinin məlumatlandırılması qaydalarına uyğun olaraq, MMX tərəfindən monitorinq subyektləri tərəfindən təqdim olunmuş şübhəli əməliyyatlara dair hesabatların sayı, bu hesabatların keyfiyyəti, habelə bu cür hesabatları təqdim etməyən banklara dair Azərbaycan Respublikasının Mərkəzi Bankı dövri qaydada məlumatlandırılmışdır.

Eyni zamanda, hesabat ilində aşağıdakı mövzulara dair strateji təhlil hesabatları hazırlanmışdır:

- Azərbaycan Respublikasının gömrük sərhədindən fiziki olaraq keçirilən nağd pul vəsaitləri və adsız qiymətli kağızlar ilə əlaqəli tətbiq olunan tədbirlərin beynəlxalq standartların tələblərinə uyğunluğunun qiymətləndirilməsi;
- Daşınmaz əmlak bazarının xüsusiyyətləri və onun cinayət yolu ilə əldə olunmuş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi üzrə zəiflikləri və riskləri;
- Beynəlxalq sanksiyalar çərçivəsində Azərbaycan vasitəsilə həyata keçirilmiş əməliyyatlar.






## Ölkədaxili əməkdaşlıq

2022-ci ildə MMX tərəfindən monitorinq subyektləri, məhkəmə və hüquq mühafizə orqanları, eləcə də müxtəlif dövlət qurumları və qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın gücləndirilməsi üzrə işlər görülmüşdür.

2022-ci il ərzində 5-ci raund qiymətləndirməyə ölkə səviyyəsində hazırlığın təmin edilməsi və bu xüsusda dövlət qurumlarının arasında, habelə Azərbaycan Respublikası adından MONEYVAL Komitəsinin Katibliyi ilə zəruri əlaqələndirmənin təşkili məqsədilə tədbirlər həyata keçirilmişdir.

Sosial media platformalarının son illər artan əhəmiyyətini nəzərə alaraq, həmçinin MMX-nin fəaliyyətinə dair ictimai kommunikasiyanın gücləndirilməsi məqsədilə hesabat ilində “Facebook” və “LinkedIn” platformalarında MMX-nin rəsmi hesabları açılmışdır. İctimaiyyətə açıqlanmalı məlumatlar, MMX-nin təmsil olunduğu tədbirlər və s. müvafiq xəbərlər barədə press-relizlər rəsmi sayt və sosial şəbəkə hesabları vasitəsilə paylaşılmışdır.

2022-ci il ərzində MMX tərəfindən müstəqil formada, habelə Mərkəzi Bank, Dövlət Vergi Xidməti və Avropa Şurası ilə birgə təlimlər təşkil edilmişdir. Təlimlər yeni texnologiyalar və virtual aktivlər üzrə ƏL/TM riskləri, maliyyə axınlarının təhlili vasitəsilə terrorçuluğun maliyyələşdirilməsi risklərinin qiymətləndirilməsi, müştəri profili üzrə məlumatların yığılması, risk dərəcəsi və onun müəyyən edilməsi yolları kimi mövzuları ehtiva etmişdir.

Bundan başqa, MMX Beynəlxalq Miqrasiya Təşkilatının İnkişaf Fondunun maliyyə vəsaiti hesabına Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinin tərəfdaşlığı ilə icra edilən “Azərbaycanda pul köçürmələrinin sosial-iqtisadi təsirlərinin yaxşılaşdırılması” layihəsi çərçivəsində əlaqələndirmənin təmin edilməsi məqsədilə yaradılan işçi qrupda təmsil olunmuşdur.

Həmçinin 2022-ci ildə “Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində barəsində sanksiya tətbiq edilməli olan şəxslərin Ümumi Siyahısı” 6 dəfə yenilənmiş və bu barədə müvafiq nəzarət orqanlarına məlumat verilmişdir.







## Beynəlxalq əməkdaşlıq

2022-ci il ərzində Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun daha da artırılması, müvafiq sahədə beynəlxalq əməkdaşlığın və məlumat mübadiləsinin genişləndirilməsi, habelə kadr potensialının gücləndirilməsi məqsədilə müxtəlif beynəlxalq tədbirlərdə aktiv iştirakçılıq təmin edilmişdir.

Eqmont Qrupu çərçivəsində keçirilmiş tədbirlərdə MMX-nin əməkdaşları iştirakçı və ekspert qismində öz töhfələrini vermişdir. Belə ki, Eqmont Qrupunun "Üzvlük, dəstək və uyğunluq üzrə işçi qrup"un 2022-ci il 3 fevral tarixində onlayn formatda keçirilən iclasında MMX-nin əməkdaşı ikinci dəfə bu işçi qrupun sədr müavini seçilib. Sözügedən işçi qrup çərçivəsində təşkil edilmiş bir sıra tədbirlərlə yanaşı, Eqmont Qrupunun 2022-ci il 10-15 iyul tarixlərində Latviya Respublikasının Riqa şəhərində keçirilmiş plenar iclasında MMX-nin əməkdaşının iştirakı təmin edilmişdir. Bundan başqa, MMX-nin əməkdaşı tərəfindən Qvineya-Bissau Respublikasının Maliyyə Kəşfiyyatı Orqanının Eqmont Qrupunun üzvlük prinsiplərinə uyğunluğunun qiymətləndirilməsi aparılmışdır.

Hesabat ilində MMX-nin beynəlxalq əməkdaşlığının əhəmiyyətli istiqaməti MONEYVAL Komitəsi ilə bağlı olmuşdur. MMX-nin əməkdaşları 2022-ci ilin 15-16 noyabr tarixlərində baş tutan CETS 198 Konvensiyasının 14-cü Plenar iclasında, habelə MONEYVAL Komitəsinin müvafiq olaraq 2022-ci ilin 16-17 may və 5-9 dekabr tarixlərində hibrid formatda baş tutan 63-cü və 64-cü plenar iclaslarında aktiv iştirak etmiş, müxtəlif ölkələrə münasibətdə hazırlanmış qarşılıqlı qiymətləndirmə hesabatlarına dair yazılı, həmçinin plenar iclas zamanı şifahi qeydlər təqdim etmişdir. Həmçinin CETS 198 Konvensiyasının Tərəflər Konfransının Bürosuna üzv seçilmiş MMX-nin əməkdaşı büronun fəaliyyətində aktiv iştirak etmiş, plenar iclasda Konvensiyanın qeyd-şərtləri ilə bağlı təqdimat etmişdir. Əlavə olaraq, MMX-nin əməkdaşı CETS 198 Konvensiyasının Tərəflər Konfransı və Katiblik tərəfindən Konvensiyanın 2022-ci il üzrə şaquli qiymətləndirilməsində məruzəçi kimi seçilmiş, tematik təhlil hesabatının hazırlanmasında aktiv iştirak etmiş və plenar iclasda təhlil hesabatına dair təqdimatla çıxış etmişdir.

Həmçinin 2022-ci ilin 19-23 aprel tarixlərində MONEYVAL Komitəsi tərəfindən 5-ci raund qiymətləndirmə üzrə onlayn formatda təşkil edilmiş ölkə təlimlərində MONEYVAL Komitəsinin ekspertləri qarşılıqlı qiymətləndirmə prosesi, onun prosedurları və əhatə dairəsi, habelə ölkənin risk qiymətləndirməsi, sözügedən sahədə ən yaxşı təcrübələr və prinsiplər haqqında iştirakçılara geniş məlumat vermişdir.

Bundan başqa, Azərbaycan Respublikasında müsadirə prosedurlarının effektivliyinin artırılması məqsədilə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və ya terrorçuluğun maliyyələşdirilməsi zamanı istifadə edilən əmlakın dövlət nəfinə alınması ilə bağlı maddi və prosessual qanunvericiliyin təkmilləşdirilməsi, xüsusilə genişləndirilmiş və mülki müsadirə prosedurlarının tətbiqi ilə əlaqədar BMT-nin Regionlararası Cinayət və Ədalət Tədqiqat İnstitutunun (UNICRI) ekspertləri ilə müzakirələr davam etdirilmiş, Baş Prokurorluğun və MMX-nin məsul əməkdaşları bu sahədə qabaqcıl təcrübələrin öyrənilməsi məqsədilə 2022-ci ilin 4-8 aprel tarixlərində Niderland Krallığının Haaqa şəhərinə ezam edilmişdir.

Ötən il ərzində Avropa Şurasının Bakı ofisi tərəfindən "Azərbaycanda çirkli pulların yuyulmasına qarşı mübarizənin və aktivlərin bərpası sahəsində fəaliyyətin gücləndirilməsi" layihəsi çərçivəsində bir sıra təlimlər və seminarlar keçirilmişdir. "Müsadirə üsulları – Çətinliklər və Tövsiyələr", "Qeyri-kommersiya sektorunda çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsi riskləri", "Benefisiar mülkiyyətçilik sahəsində şəffaflıq", "Aktivlərin bərpası üzrə beynəlxalq əməkdaşlıq sahəsində yaxşı təcrübələr", "Cinayət yolu ilə əldə edilmiş gəlirlərin aşkar olunması, qiymətləndirilməsi, üzərinə həbs qoyulması və müsadirə edilməsi" mövzusunda keçirilmiş tədbirlərdə MMX-nin əməkdaşlarının iştirakı təmin edilmişdir.

Bundan başqa, MMX-nin əməkdaşı 2022-ci ilin 21 sentyabr – 4 oktyabr tarixlərində MONEYVAL Komitəsinin qiymətləndirici missiyasının tərkibində Şimali Makedoniya Respublikasının 5-ci raund qiymətləndirməsi çərçivəsində sözügedən ölkədə səfərdə olmuşdur. Qiymətləndirici missiya FATF-ın qiymətləndirmə metodologiyasına əsasən ölkənin ƏL/TMM sisteminin texniki uyğunluq və effektivlik parametrləri üzrə məlumatlar toplayaraq təhlillər aparmış və hesabat hazırlamışdır. Həmçinin MMX-nin əməkdaşı tərəfindən Litva Respublikasının 5-ci raund qiymətləndirmə üzrə tərəqqi hesabatının məruzəçi qismində qiymətləndirilməsi aparılmış və sözügedən sənəd MONEYVAL Komitəsinin 64-cü plenar iclasında müzakirəyə çıxarılaraq qəbul edilmişdir.

Beynəlxalq əməkdaşlığın gücləndirilməsi çərçivəsində 2022-ci ilin 13-15 dekabr tarixlərində Avstriyanın Vyana şəhərində BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə Mübarizə İdarəsi tərəfindən təşkil olunan "Çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı beynəlxalq mübarizədə qadın liderlərə səlahiyyətlərin verilməsi" mövzusunda, həmçinin 20-21 dekabr tarixlərində Avropa Şurasının təşkilatçılığı ilə Fransanın Strasburq şəhərində "Dövlət qurumları və vətəndaş cəmiyyəti təşkilatları üçün korrupsiya, çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə" mövzusunda keçirilən seminarda MMX-nin əməkdaşlarının iştirakı təmin olunmuşdur.



Bundan başqa, Özbəkistan Respublikasının Dövlət Aktivlərinin İdarə edilməsi üzrə Agentliklə onlayn görüş keçirilmiş, rieltorların ƏL/TMM sahəsində öhdəliklərinin icrası ilə bağlı məsələlər müzakirə edilmişdir.

Həmçinin qeyd etmək lazımdır ki, MMX-nin əməkdaşlarının potensialının gücləndirilməsi məqsədilə müxtəlif beynəlxalq təlimlərə də xüsusi önəm verilmişdir. Belə ki, 21-25 noyabr tarixlərində Koreya Respublikasının Busan şəhərində yerləşən FATF Təlim İnstitutu tərəfindən təşkil olunan "FATF Standartları" üzrə Təlimçilər üçün Təlim Kursunda MMX-nin əməkdaşları iştirak etmişdir və müvafiq imtahanı keçərək FATF təlimçisi sertifikatını əldə etmişdir.

Bundan başqa, ötən il ərzində Avropa İttifaqı və Avropa Şurasının həyata keçirdiyi "CyberEast" layihəsi çərçivəsində 2022-ci ilin 26-27 sentyabr tarixlərində "Kibercinayətkarlıq üzrə hesabat (qiymətləndirmə), kiber taksonomiyaların istifadəsi və əlaqələndirilmiş IOCTA (İnternet üzərindən mütəşəkkil cinayət təhlükəsinin qiymətləndirilməsi) hesabatı üzrə Milli Seminarda, habelə 1-2 dekabr tarixlərində Bakıda ABŞ Dövlət Departamentinin İxrac Nəzarəti və Sərhəd Təhlükəsizliyi Proqramı çərçivəsində "Pacific Northwest" Milli Laboratoriyası ilə birgə "Beynəlxalq sanksiyalara dair risklərin təhlili" mövzusunda keçirilmiş kurslarda MMX-nin əməkdaşlarının iştirakı təmin edilmişdir.

Hesabat ilində beynəlxalq məlumat mübadiləsi çərçivəsində MMX-yə xarici MMO-lar tərəfindən 37 sorğu, həmçinin spontan qaydada 21 məlumat göndərilmiş, MMX tərəfindən isə xarici tərəfdaşlara 25 sorğu, spontan qaydada isə 19 məlumat göndərilmişdir (Diaqram 3).



| | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| Spontan məlumat mübadiləsi (daxil olan) | 34 | 35 | 21 |
| Daxil olan sorğular | 32 | 49 | 37 |



| | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| Spontan məlumat mübadiləsi (göndərilən) | 16 | 2 | 19 |
| Göndərilən sorğu | 61 | 37 | 25 |

# İnstitusional quruculuq və təşkilati məsələlər

2022-ci ildə MMX-də institusional quruculuq istiqamətində fəaliyyətlər davam etdirilmiş, ƏL/TMM sahəsində bilik səviyyəsinin artırılması və kadr potensialının gücləndirilməsi, habelə əmək qanunvericiliyi sahəsində inzibatçılığın avtomatlaşdırılması üzrə işlər görülmüşdür.

Müasir dövrdə İKT-nin tətbiqi imkanlarının, habelə bilik və bacarıqların təkmilləşdirilməsinə əsaslanan təhsil yanaşmalarının genişlənməsi elektron tədris platformalarının yaradılmasını zərurətə çevirir. ƏL/TMM sahəsində fəaliyyət göstərən şəxslərin bilik və bacarıqlarının, fəaliyyət səmərəliliyinin və peşəkarlığının artırılmasını məqsədilə MMX-də innovativ tədris metodları və yanaşmalarını ehtiva edən elektron tədris platformasının yaradılması işləri tamamlanaraq 2022-ci ilin sentyabr ayında geniş ictimaiyyətə təqdim edilmişdir.

2022-ci ilin sentyabr-dekabr ayları ərzində elektron tədris platformasında 200 nəfər qeydiyyatdan keçmişdir ki, bunun da 144-ü öhdəlik daşıyan şəxslər və onların əməkdaşları (banklar, investisiya və sığorta şirkətləri, auditor, notarius və vəkillər), digərləri isə müxtəlif dövlət qurumlarının əməkdaşları, tədqiqatçılar, tələbələr və digər şəxslər olmuşdur. Elektron tədris platformasında hazırda "ƏL/TMM-in əsasları", "Nəzarət və tənzimləmə" və "ƏL/TMM üzrə cinayət təqibi" mövzuları üzrə 3 modul mövcuddur. Qiymətləndirmə dövründə istifadəçilər tərəfindən müxtəlif modullar üzrə imtahan nəticələriə əsasında 22 sertifikat təqdim edilmişdir.

"Dövlətə məxsus hüquqi şəxslərdə apelyasiya şuralarının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 6 may tarixli 681 nömrəli Fərmanına uyğun olaraq MMX-də fəaliyyət göstərən Apelyasiya Şurasına 2022-ci il ərzində şikayət daxil olmamışdır.





# İnformasiya texnologiyaları



MMX-nin İT infrastrukturunun təkmilləşdirilməsi və müvafiq elektron xidmətlərin göstərilməsi istiqamətində 2022-ci il ərzində bir sıra tədbirlər görülmüşdür.

Bu çərçivədə MMX-nin rəsmi internet səhifəsi yenilənmişdir. Müəyyən dövlət qurumları tərəfindən gələn məlumatları qəbul etmək üçün müvafiq təhlükəsiz internet kanalları konfiqurasiya edilmişdir.

Həmçinin, MMX-nin informasiya ehtiyatının və sisteminin nüsxələnməsi və proqram təminatının mütəmadi yenilənməsi həyata keçirilmişdir. Mütəmadi olaraq server avadanlıqlarında sistem və audit loq jurnallarının izlənməsi, eləcə də məxfiliyin qorunması və kənar müdaxilələrin məhdudlaşdırılması məqsədilə serverlərin və inzibatçıların şifrələrinin vaxtaşırı yenilənməsi də hesabat ili ərzində təmin edilmişdir.

Ötən il ərzində MMX tərəfindən 34 müvafiq monitorinq subyekti və 46 yeni məsul şəxs GoAML sistemində qeydiyyatdan keçmişdir.

MMX-nin rəsmi internet səhifəsinin indikatorları və istifadəçilərin sayı haqqında ətraflı monitorinq aparmaq üçün beynəlxalq praktikada geniş istifadə olunan "Google Analytics" proqram təminatı quraşdırılmışdır. 2022 il üzrə internet səhifəsinin monitorinq nəticələri aşağıda təqdim olunur.

**Cədvəl 1. 2022 il ərzində internet səhifənin indikatorlarına dair hesabat**

| Seansların sayı | İstifadəçilərin sayı | Səhifələrin baxılması sayı | Yeni istifadəçilər | Qayıtmış istifadəçilər |
|---|---|---|---|---|
| 41776 | 16207 | 134640 | 15969 | 3785 |

Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti
AZ 1014, Bakı şəhəri, Bülbül prospekti, 40
+(994 12) 598 1946
office@fiu.az
www.fiu.az